# Dərmanların qiymətlərinin tənzimlənməsi əhalinin sosial müdafiəsinin təminatına xidmət edir

**“Dövlət qeydiyyatına alınmış dərman vasitələrinin qiymətlərinin tənzimlənməsi barədə” Azərbaycan Respublikası Tarif ( qiymət) Şurasının 2015-ci il 30 iyul tarixli 5 nömrəli Qərarında dəyişikliklər edilməsi və bununla bağlı əlavə tədbirlər haqqında”kı qərarına əsasən, 1057 adda dərmanın qiyməti tənzimlənib**

**Dövlət siyasətimizin əsasını təşkil edən, daim diqqət mərkəzində saxlanılan sosial məsələlər həyata keçirilən mühüm əhəmiyyətli islahatlar nəticəsində həllini tapır. Düşünülmüş iqtisadi islahatlar güclü sosial siyasətlə tamamlanır. Güclənən iqtisadi imkanlar hesabına sosial öhdəliklər yerinə yetirilir, sosial infrastrukturun yaradılması üçün əlavə vəsaitlər ayrılır. Sosial müdafiənin etibarlı təminatı insanların rifah halını, rahat yaşamasını təmin edən sahə olduğu üçün dövlət tərəfindən vətəndaşlara göstərilən diqqət və qayğı xüsusi önəm daşıyır.**



“Azərbaycan-2020: gələcəyə baxış” İnkişaf Konsepsiyasında da getdikcə möhkəmlənən iqtisadi imkanlar hesabına əhatə dairəsi genişlənən sosial islahatların sürətləndirilməsinin vacibliyi əksini tapır. Prezident İlham Əliyevin başlıca tövsiyələrindən olan “Dövlət siyasətimizin əsasında vətəndaş amilidir” sözləri də insanlara diqqətin ifadəsidir. Aparılan islahatların nəticəsidir ki, ölkədə sosial problemlərin həlli intensivləşir, əhalinin sosial müdafiəsi sistemi beynəlxalq standartlara uyğun, müasir tələblər səviyyəsində yenidən qurulur. Bu siyasətin nəticəsidir ki, Azərbaycanda yoxsulluq və işsizlik 5 faizə endirilmişdir.

Ölkəmizin modernləşdirilməsinə yönəlmiş sosial-iqtisadi siyasətin təkmilləşdirilməsində strateji sahə olan təhsil və səhiyyənin inkişafına diqqətin artırılması ölkə əhalisi tərəfindən razılıqla qarşılanır. Buna görə də kompleks inkişaf üçün nəzərdə tutulan bütün islahatlarda respublika əhalisinin sağlamlığının qorunmasında və tibbi xidmətin keyfiyyətinin yaxşılaşdırılmasında vacib hədəflər, səhiyyənin prioritet istiqamətləri, mövcud potensialdan səmərəli istifadə imkanları müəyyənləşdirilir. Səhiyyənin inkişafına dövlət büdcəsindən ayrılan vəsaitlərin artırılması, maddi-texniki bazasının möhkəmləndirilməsinin mərkəzləşdirilmiş qaydada idarə olunması müsbət nəticəsini göstərir. İnkişaf Konsepsiyasında sağlamlıq üçün vacib şərtlərdən olan əhalinin dərman preparatları ilə təminatına xüsusi diqqət yetirilərək qeyd olunur ki, əsas həyati vacib dərman preparatlarının bütün əhali qrupları üçün fiziki və iqtisadi cəhətdən əlçatan olması, keyfiyyəti, səmərəliliyi və təhlükəsizliyinin təmin edilməsi məqsədilə onların vahid qeydiyyat sisteminin yaradılması üçün zəruri tədbirlər görüləcəkdir. Dərman bazarına lisenziyalaşmamış və aşağı keyfiyyətli preparatların daxil olmasının qarşısının alınması istiqamətində əməli addımlar atılacaqdır.

Nazirlər Kabinetinin 2015-ci ilin birinci yarım ilinin yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında ölkədə siyasi, iqtisadi, sosial sahədə görülən işlər barədə açıqlama verən Prezident İlham Əliyevin ən vacib, əhalini düşündürən məsələlərə xüsusi diqqətlə yanaşması vətəndaş amilinə göstərilən qayğının ifadəsidir. Bu, bir daha subut edir ki, dövlət başçısı İlham Əliyevin vədləri əməli işi ilə tamamlanır, reallaşır və düşünülmüş inkişaf konsepsiyasını əks etdirir.

Sözügedən iclasda əsasən sosial sahəni əhatə edən məsələlərin həlli ilə bağlı tövsiyələrini verib, tələblərini qəti şəkildə aidiyyəti orqanlara çatdıran cənab İlham Əliyev sahibkarlığın inkişafı, vizaların verilməsi, turizmin inkişafında əsas məsələ olan və ölkə vətəndaşlarının səmərəli istirahəti üçün nəzərdə tutulan otellərin, aviabiletlərin qiymətlərinin tənzimlənməsi, hiss olunan yüksək tariflə bağlı problemlərə aydınlıq gətirdi. Diqqət çəkən mühüm məsələ isə Prezident İlham Əliyevin dərman bazarında mövcud olan “biznes”, tibbi preparatların qiymətlərindəki uyğunsuzluğun aradan qaldırılması ilə bağlı qəti tələbləri, tapşırıqları oldu.

“Mən bir məsələni də bildirmək istəyirəm. Həm ictimaiyyət bilsin, həm də ki, burada artıq bu məsələ uzun müddətdir müzakirə olunur, göstərişlər verilib. Bu da dərman preparatlarının bazarı ilə bağlı olan məsələdir. Əfsuslar olsun ki, uzun illər burada da çox xaotik vəziyyət müşahidə olunurdu. Qeyd etməliyəm ki, bu məsələ bir qədər diqqətdən kənarda qalmışdır. Çünki biz indi bazar iqtisadiyyatı şəraitində yaşayırıq. Hər şey bazar tərəfindən tənzimlənir və təklif, qiymət, tələbat - yəni, bütün bunlar iqtisadi mexanizmlərdir. Hesab edirdik ki, indi bazar hər şeyi tənzimləyir, alıcılıq qabiliyyəti var, qiymətlər var. Amma sonra məsələni dərindən təhlil edərkən gördük ki, burada çox böyük ədalətsizliklər var” söyləyən dövlətimizin başçısı qiymətlərin süni şəkildə qaldırılmasını yolverilməz hesab edərək iradlarını da diqqətə çatdırdı. “Başqa ölkələrlə müqayisədə Azərbaycanda bəzi dərmanların qiymətləri bir neçə dəfə bahadır. İnsanlar məcbur olub bu dərmanları alırlar. Bir çox hallarda keyfiyyətsiz dərmanlar satılır. Bu məsələ dərindən öyrənilib” söyləyən dövlət başçısı bu sahədə məsuliyyət daşıyan İqtisadiyyat və Sənaye, Səhiyyə nazirliklərinə, digər qurumlara tapşırıqlarını da çatdırdı.

İclasda dərmanların qiymətləri ilə bağlı narahatlıq doğuran digər məsələlərə də toxunuldu. Artıq cəmiyyətdə bəzi həkimlərin müəyyən əczaxanalarla “birgə fəaliyyəti, satılan dərmanlardan faiz götürmək”lə bağlı ictimai rəy formalaşıb. Bu məsələnin də Prezidentin diqqət mərkəzində olması deyilənlərdən də aydın oldu: “Hesab edirəm ki, burada həkimlərin də məsuliyyətsizliyi və bəzi hallarda tamahkarlığı özünü göstərir. Lazım olmayan reseptləri yazırlar. Resepti yazır, deyir ki, sən bu dərmanı filan yerdən almalısan. Hətta reseptlə satılmayan vitaminlərə də resept yazırlar. Bu, böyük bir biznes şəbəkəsidir. Bu biznes kimin hesabınadır? Adi insanın hesabına. Adi insan da məcbur olub gedir ona verilən reseptlə dərman alır. Heç bilmir nə alır. Sonra dərmanın ona kömək edib-etməməsi ilə əfsuslar olsun ki, heç kim maraqlanmır. Digər tərəfdən, dərmanlar var ki, müxtəlif ölkələrdə istehsal olunur. İnkişaf etmiş ölkələrdə onların qiyməti bahadır. O qədər də inkişaf etməmiş ölkələrdə o qiymət aşağıdır. Gedirlər ən ucuzunu, ən aşağı keyfiyyətlisini alırlar, gətirirlər, ən baha qiymətə satırlar. Bu, hələ məsələnin az bir hissəsidir. Mən burada bu barədə çox danışmaq istəmirəm. Ancaq bu sahədə çox ciddi pozuntular olub və var. Bu pozuntulara son qoyulmalıdır. Ona görə, indi bütün məsələ təhlil edilib. Artıq bir neçə aydan sonra tətbiq edilməyə başlayacaqdır.”

Daim sözünün sahibi olan Prezident İlham Əliyevin bu vədi də özünü zamanında doğrultdu. Ölkə ictimaiyyəti tərəfindən razılıqla qarşılanan dərman bazarında yeni qiymət tarifinin reallaşması ilə bağlı aparılan islahatlara start verildi. “Hesab edirəm ki, sentyabr ayından gec olmayaraq bu məsələ artıq yeni müstəviyə qalxmalıdır. Həm şəffaflıq təmin ediləcək, hər bir vətəndaş biləcək ki, hansı dərmanı alır və hansı qiymətə alır. Qiymətlərin yuxarı səviyyəsi müəyyən ediləcək. Heç kim o səviyyədən baha sata bilməyəcək. Dərmanları satanlar da burada öz gəlirlərini götürəcəklər. Onların da normal gəlir səviyyəsi olmalıdır. Ancaq bu səviyyə 100, 200, 300 faiz olmamalıdır. Heç yerdə belə özbaşınalıq yoxdur. Görülən və görüləcək tədbirlər nəticəsində ilin sonuna qədər dərmanların qiymətləri kəskin şəkildə aşağı düşməlidir. İstəyirəm Azərbaycan ictimaiyyəti bunu bilsin. Bu məsələ də daim diqqət mərkəzində olacaq” söyləyən Prezident İlham Əliyevin tələbləri nəzərdə tutulan müddətdə həllini tapdı.

“Dövlət qeydiyyatına alınmış dərman vasitələrinin qiymətlərinin tənzimlənməsi barədə” Azərbaycan Respublikası Tarif (qiymət) Şurasının 2015-ci il 30 iyul tarixli 5 nömrəli Qərarında dəyişikliklər edilməsi və bununla bağlı əlavə tədbirlər haqqında”kı qərarına əsasən, ümumilikdə elan olunmuş 25 təsiredici maddə üzrə 1057 adda dərman vasitəsinin qiymətləri bazar iqtisadiyyatının tələblərinə uyğun tənzimlənib. Prezident İlham Əliyevin tapşırığına müvafiq olaraq satışda 46 faiz dərman vasitələrinin qiymətləri 2 dəfədən, 24 faiz dərman vasitəsinin qiymətləri 3 dəfədən çox ucuzlaşıb. Bütövlükdə həmin tərkib üzrə satışda olan dərman vasitələrinin 94 faizi üzrə qiymətlər aşağı salınıb. Böyük sosial əhəmiyyətə malik bu proses başqa dərman preparatlarının qiymətlərinin tənzimlənməsinədək davam edəcək.

Dərman vasitələrinin qiymətlərinin tənzimlənməsi üzrə Tarif Şurasının qərarı səhiyyə işçiləri tərəfindən də razılıqla qarşılanıb.

**Aygün Ocaqova- Nərimanov rayonundakı 14 saylı uşaq poliklinikasının pediatrı:**

- Səhiyyənin inkişafına xüsusi diqqət yetirildiyi respublikamızda dərman preparatlarının qiymət tənzimlənməsi ilə bağlı qəbul olunan qərarın tətbiqi biz həkimlərin də sevincinə səbəb olub. Hər gün uşaqlarını müayinə üçün bizə müraciət edən onlarla valideynlə rastlaşırıq. Onlar da Prezident İlham Əliyevin əhalinin sosial vəziyyətinin etibarlı təminatına yönəlmiş bu addımını yüksək qiymətləndirirlər. Aztəminatlı ailələr üçün xüsusilə böyük önəm daşıyan dərman bazarında qiymətlərin tənzimlənməsi bizim üçün də əhəmiyyətlidir. Yazılan dərmanları almaqda çətinlik çəkən valideynlər üçün bu qayğı ikiqat önəmli olmaqla biz həkimlərin də rahatlığına səbəb olur. Yəni valideynlərin uşaqlarının sağalması üçün yazılan bütün dərmanları almaq imkanları artacaq.

**Bahar Məmmədova- “EUROPA+” aptekinin əczaçısı:**

- Dövlət qeydiyyatına alınmış dərman vasitələrinin qiymətlərinin tənzimlənməsi barədə Tarif Şurasının qərarının tətbiqi biz əczaçılar üçün də əhəmiyyətlidir. Çünki qiymətləri nisbətən baha olan dərmanları almaqda çətinlik çəkənləri gördə bir insan kimi biz də narahatlıq keçiririk. Qiymətləri nisbətən baha olan dərmanların satışında yaranan alıcı qıtlığı vaxtı ötmüş preparatların say artımına da gətirib çıxarır. İlk növbədə aztəminatlı ailələrin sosial vəziyyətinin yaxşılaşmasına təsir edəcək qiymət tənzimləməsini dövlətimizin ölkə vətəndaşlarına qayğısı kimi qiymətləndirirəm. Bu cür tənzimləmə satışa çıxarılan dərmanların keyfiyyət baxımından daha səmərəli olmasına da şərait yaradacaq.

**Xuraman İsmayılqızı, *“İki sahil”***